**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin 16 fevral 2026-cı il tarixli 3-24-18/3-1-f-34/2026 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinə təhsilalanların qəbulu və yerdəyişməsi QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinə təhsilalanların qəbulu və yerdəyişməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) məqsədi Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinə (bundan sonra – Məktəblər) təhsilalanların qəbulu və yerdəyişməsi proseslərinin obyektiv, şəffaf və hüquq bərabərliyi prinsipləri əsasında həyata keçirilməsini, habelə istedadlı şəxslərin müəyyən edilərək Məktəblərə qəbul edilməsini tənzimləməkdir.

1.2. Bu Qaydalar "Təhsil haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 04 noyabr tarixli 23-VII FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə və qüvvədə olan digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

## 2. Məktəbə qəbulun və yerdəyişmənin prinsipləri

Məktəblərə təhsilalanların qəbulu və yerdəyişməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- qanunçuluq – məktəblərə qəbul və yerdəyişmə zamanı qanunvericiliyin tələblərinə riayət edilməsi, qəbul və yerdəyişmə üçün müraciət edənlərlə (bundan sonra - namizədlər) bağlı məcburi tələblərin normativ hüquqi aktlara və Nazirlik tərəfindən təsdiq edilmiş hüquqi aktlara uyğun olması;
- obyektivlik – namizədin uyğunluğunun bu Qaydalar əsasında qiymətləndirilməsi;
- qərəzsizlik – namizədlə yaxın qohumluq (valideynləri, qardaşları, bacıları, əri (arvadı), övladları) və şəxsi tanışlıq əlaqəsi olan şəxslərin imtahan komissiyasının tərkibinə daxil edilməsinin yolverilməzliyi;
- bərabərlik - irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq təhsilalanların qəbulu və yerdəyişməsi ilə əlaqədar hüquqlarının bərabərliyinə təminat verilməsi;
- şəffaflıq – qəbul və yerdəyişmə prosedurunun şərtlərinin və nəticələrinin ictimaiyyətə açıq şəkildə elan edilməsi.

## 3. Təhsilalanların məktəblərə qəbulunun ümumi qaydaları

3.1. Məktəbə təhsilalanların qəbulu müraciət, imtahan, məktəb və ixtisas seçimi, yerləşdirmə və sənədlərin qəbulu mərhələlərindən ibarətdir.

3.2. Qəbul ilə bağlı müraciət, imtahanın vaxtı, yeri və nəticələri barədə məlumatlandırma, məktəb və ixtisas seçimi, yerləşdirmə və sənədlərin qəbulu "MyCulture" vahid şəxsi kabinet vasitəsi ilə elektron qaydada, qəbul imtahanı isə əyani şəkildə keçirilir.

3.3. Qəbul prosesinin bütün mərhələləri müraciətin edildiyi "MyCulture" vahid şəxsi kabineti üzərindən və həmin kabinet üzrə qeydiyyatdan keçmiş şəxs tərəfindən həyata keçirilir və tamamlanır. Qəbul prosesi ilə bağlı bütün fəaliyyət və məlumatlandırma, o cümlədən müraciətin nəticələri, imtahanın vaxtı və yeri, imtahan nəticələri, məktəb və ixtisas seçimi, yerləşdirmə və sənəd qəbulu və digər rəsmi bildirişlər yalnız həmin şəxsi kabinet vasitəsilə təqdim edilir.

3.4. Məktəblərə təhsilalanların qəbulunun keçirilməsi barədə elan, qaydalar və müvafiq məlumatlar Nazirliyin və regional mədəniyyət idarələrinin (bundan sonra – İdarələr) rəsmi informasiya resurslarında yerləşdirilir.

3.5. Azərbaycan Respublikasının ərazisində yaşayan və Azərbaycan Respublikasının vətəndaşı olan hər bir şəxsin müvafiq yaşayış məntəqəsində qeydiyyatının olub-olmamasından asılı olmayaraq bu Qaydaların tələblərinə uyğun məktəbdə təhsil almaq hüququ vardır.

3.6. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məktəblərə qəbulu bu Qaydalara və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun həyata keçirilir.

3.7. Məktəbin I sinfinə dövlət hesabına təhsilalanların qəbulu aşağıda göstərilən yaş həddi ilə müəyyən edilir:

3.7.1. 4 illik təhsil üzrə I sinfə qəbul üçün yaş həddi:

3.7.1.1. rəssamlıq sinfinə 8-12 yaş.

3.7.2. 5 illik təhsil üzrə I sinfə qəbul üçün yaş həddi:

3.7.2.1. musiqi alətləri sinfinə (xalq çalğı, simli, nəfəs, zərb alətləri) 9 -12 yaş;

3.7.2.2. xanəndəlik və vokal sinfinə 7 -11 yaş;

3.7.2.3. xoreoqrafiya sinfinə 6 -10 yaş.

3.7.3. 7 illik təhsil üzrə I sinfə qəbul üçün yaş həddi:

3.7.3.1. musiqi alətləri sinfinə (fortepiano, simli alətlər) 6 - 8 yaş;

3.8. İxtisaslar üzrə bu Qaydaların 3.7-ci bəndində göstərilən yaş hədləri namizədin müsabiqədə iştirak üçün müraciət etdiyi tarixdəki yaşına əsasən müəyyən edilir və qəbul prosesinin bütün mərhələləri həmin yaşa uyğun olaraq aparılır.

## 4. Təhsilalanların qəbul üçün müraciət qaydası

4.1. Məktəblərə təhsilalanların qəbulu üçün müraciətlərin elektron qeydiyyatı Nazirlik tərəfindən əvvəlcədən elan edilmiş tarixlərdə "MyCulture" vahid şəxsi kabineti üzərindən aparılır.

4.2. Müraciət mərhələsində namizədin valideyni və ya qanuni nümayəndəsi yalnız imtahan vermək istədiyi ixtisas istiqamətini (musiqi, xoreoqrafiya və rəssamlıq) və fəaliyyət göstərəcək imtahan komissiyalarına uyğun olaraq şəhər və ya rayonu seçir.

4.3. Müraciətin nəticəsi, habelə imtahan vaxtı və yeri ilə bağlı namizədin valideyni və ya qanuni nümayəndəsinə şəxsi kabinet, elektron poçt və SMS məlumatlandırma xidməti vasitəsilə bildiriş göndərilir.

## 5. Qəbul imtahanının keçirilmə qaydası

5.1. Məktəblərə təhsilalanların qəbulu üçün imtahan Nazirlik tərəfindən əvvəlcədən elan edilmiş tarixlərdə, mərkəzləşdirilmiş qaydada və əyani şəkildə keçirilir.

5.2. İmtahanın videoçəkilişi aparılır və ayrıca olaraq hər bir namizədin imtahan nəticəsi, imtahan protokolu və videoyazısı elektron sistemə yerləşdirilir.

5.3. Hər bir namizədlə imtahan fərdi qaydada, Azərbaycan Respublikasının dövlət dilində, I sinfə qəbul olunanlar üçün 10 (on) dəqiqəyədək aparılır.

5.4. I sinfə qəbul üçün namizədin qabiliyyət və bacarıqları aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

5.4.1. Musiqi alətləri, vokal və xanəndəlik ixtisasları üzrə:

5.4.1.1. eşitmə qabiliyyəti (hər hansı bir mahnının, habelə komissiya üzvü tərəfindən fortepianoda ifa edilən səslərin oxunması, eyni vaxtda ifa edilən səslərin sayının eşitmə ilə müəyyən edilməsi);

5.4.1.2. musiqi yaddaşı və mahnı oxuma (komissiya üzvünün fortepianoda ifa etdiyi kiçik musiqi parçasının oxunaraq təkrar edilməsi və namizədin əvvəlcədən təqdim edilmiş proqram üzrə seçilmiş mahnını düzgün intonasiya və ifadəliliklə ifa etməsi);

5.4.1.3. ritm duyumu (komissiya üzvünün əl çalmaqla və ya müstəvi üzərində təqdim etdiyi ritmik şəklin təkrarı).

5.4.2. Rəssamlıq ixtisası üzrə:

5.4.2.1. qara və ya rəngli karandaşlarla sərbəst mövzuda bir əsərin işlənməsi (bunun üçün namizədə 1 saat vaxt verilir. Həmin müddət ərzində bir otaqda bir neçə namizəd işləyə bilər. Namizədlər imtahanda istifadə edəcəkləri ləvazimatları özləri ilə gətirməlidirlər);

5.4.2.2. rəsmin düzgün yerləşdirilməsi, ölçü nisbətinin (proporsiyaların) düzgün verilməsi;

5.4.2.3. işıq-kölgənin düzgün verilməsi, ümumi rəng koloritinin düzgün seçilməsi.

5.4.3. Xoreoqrafiya ixtisası üzrə:

5.4.3.1. xoreoqrafiya təlimi üçün fizioloji imkanları, anatomik xüsusiyyətləri;

5.4.3.2. ritm duyumu (komissiya üzvünün əl çalmaqla və ya müstəvi üzərində təqdim etdiyi ritmik şəklin təkrarı);

5.4.3.3. eşitmə qabiliyyəti və musiqi duyumu (müxtəlif templi musiqinin müşayiəti ilə hərəkət etməsi).

## 6. Əyani imtahan və apellyasiya

6.1. Namizədin qabiliyyət və bacarıqları İmtahan Komissiyası (bundan sonra - Komissiya) tərəfindən qiymətləndirilir.

6.2. Komissiya Nazirliklə razılaşdırılmaqla aidiyyəti İdarələr tərəfindən yaradılır.

6.3. Komissiyaların sayı müvafiq məktəblərin yerləşməsindən və müraciətlərin sayından asılı olaraq İdarə tərəfindən müəyyən edilir.

6.4. Komissiya müvafiq ixtisaslar üzrə mütəxəssislər daxil edilməklə 3 nəfərdən (sədr və 2 nəfər üzv) ibarət tərkibdə təşkil edilir. Bundan əlavə hər bir komissiya üçün ehtiyat üzvlər müəyyənləşdirilir.

6.5. İdarə tərəfindən imtahan keçirilən hər bir məkan üzrə imtahan rəhbəri təyin edilir. İmtahan rəhbəri imtahanların gedişatına nəzarəti, imtahan protokollarının, aktların, foto və videomaterialların komissiyalardan təhvil alınmasını, yaranmış problemlərin operativ şəkildə həll olunması üçün tədbir görülməsini təmin edir.

6.6. İdarə tərəfindən hər bir komissiya üzrə namizədin imtahan nəticələrinin, video və foto materiallarının sistemə daxil edilməsini təmin edəcək əməkdaş (sistem inzibatçısı - Admin) müəyyənləşdirilir.

6.7. Komissiya üzvləri imtahan aparılacaq yerə təyin edilmiş vaxtda gəlməli, namizədin və digər komissiya üzvlərinin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmalı, imtahan zamanı nəzakətli, diqqətli və səbirli olmalı, namizədin qabiliyyət və bacarıqlarının bu Qaydaların 5.4-cü bəndində qeyd edilən meyarlara uyğun yoxlanılmasını təmin etməli, imtahanın aparılmasına mane olan texniki və digər vasitələrdən istifadə etməməli, o cümlədən rabitə vasitələrini imtahan otaqlarına gətirməməli və imtahanın aparılmasına mane olan digər hərəkətlərə yol verməməlidir.

6.8. Hər bir namizədin imtahan nəticələri protokola yazılır və komissiya üzvləri tərəfindən imzalanır.

6.9. Namizəd imtahana gəlmədikdə, komissiya üzvləri tərəfindən onun imtahanda iştirak etmədiyi barədə akt tərtib edilir və imzalanır.

6.10. Hər bir namizədin imtahan nəticəsi (komissiya üzvlərinin verdiyi ballar), imtahanın videoyazısı, imzalanmış protokol və aktlar, habelə rəssamlığa münasibətdə rəsmlərin surəti (skan edilmiş) Admin tərəfindən imtahan keçirilən gün sistemə əlavə edilir.

6.11. İmtahan günü ərzində komissiyalar tərəfindən tərtib edilmiş bütün protokollar və aktlar İmtahan rəhbərinə təhvil verilir. İmtahan rəhbəri protokol və aktları həmin gün İdarəyə təhvil verir.

6.12. İmtahan mərhələsinin nəticələri ilə razı olmayan namizədin valideyni və ya qanuni nümayəndəsi nəticələr elan olunduqdan sonra 3 (üç) iş günü müddətində “MyCulture” vahid şəxsi kabinet üzərindən şikayət verə bilərlər. Şikayətlər Nazirliklə razılaşdırmaqla İdarələrin müvafiq əmri ilə yaradılmış Apellyasiya Komissiyası tərəfindən 10 (on) iş günü ərzində araşdırılır və müvafiq qərar qəbul edilir.

6.13. Təyin olunmuş vaxtda imtahanda iştirak etməyən namizədlər üçün təkrar imtahan keçirilmir.

6.14. Komissiyaların fəaliyyəti zamanı yol verilmiş pozuntu halları müəyyən edildikdə, pozuntunun xarakterindən və təsir dairəsindən asılı olaraq müvafiq imtahan üzrə qəbul edilmiş qərarlar və nəticələr tam və ya qismən ləğv edilir, zərurət yarandıqda isə imtahan yenidən təşkil olunur. Həmin pozuntulara yol vermiş şəxslər barəsində qanunvericiliyə uyğun olaraq tədbirlər görülür.

## 7. Qiymətləndirilmə və balların hesablanması

7.1. İmtahanda namizədin qabiliyyət və bacarıqları hər bir Komissiya üzvü tərəfindən bu Qaydaların 5.4-cü bəndində qeyd edilən hər bir qiymətləndirmə meyarı üzrə müvafiq balla qiymətləndirilir.

7.2. I sinfə qəbul imtahanları üzrə:

7.2.1. Musiqi alətləri, vokal və xanəndəlik ixtisasları üzrə I sinfə qəbul imtahanında namizədin qabiliyyət və bacarıqları hər bir Komissiya üzvü tərəfindən aşağıdakı 3 meyar üzrə ümumilikdə 100 balla (5.4.1.1-ci bənddəki meyar üzrə maksimum 40 bal, 5.4.1.2-ci bənddəki meyar üzrə maksimum 30 bal və 5.4.1.3-cü bənddəki meyar üzrə maksimum 30 bal) qiymətləndirilir:

Namizədin eşitmə qabiliyyəti

0 - 10 bal - qeyri-kafi

11 - 20 bal - kafi

21 - 30 bal - yaxşı

31 - 40 bal - əla

Namizədin musiqi yaddaşı və mahnı oxuma qabiliyyəti

0 - 10 bal - qeyri-kafi

11 - 20 bal - kafi

21 - 25 bal - yaxşı

26 - 30 bal - əla

Namizədin ritm duyumu

0 – 10 bal - qeyri-kafi

11 – 20 bal - kafi

21 – 25 bal - yaxşı

26 – 30 bal - əla

7.2.2. Rəssamlıq ixtisası üzrə I sinfə qəbul imtahanında namizədin qabiliyyət və bacarıqları hər bir Komissiya üzvü tərəfindən aşağıdakı 3 meyar üzrə ümumilikdə 100 balla (5.4.2.1-ci bənddəki meyar üzrə maksimum 40 bal, 5.4.2.2-ci bənddəki meyar üzrə maksimum 30 bal və 5.4.2.3-cü bənddəki meyar üzrə maksimum 30 bal) qiymətləndirilir:

Əsərin formata uyğun işlənməsi, mövzunun seçilməsi

0 – 10 bal - qeyri-kafi

11 – 20 bal - kafi

21 – 30 bal - yaxşı

31 – 40 bal - əla

Rəsmin düzgün yerləşdirilməsi, ölçü nisbətinin (proporsiyaların) düzgün verilməsi

0 - 10 bal - qeyri-kafi

11- 20 bal - kafi

21 - 25 bal - yaxşı

26 - 30 bal - əla

İşıq-kölgənin düzgün verilməsi, ümumi rəng koloritinin düzgün seçilməsi

0 - 10 bal - qeyri-kafi

11- 20 bal - kafi

21 - 25 bal - yaxşı

26 - 30 bal - əla

7.2.3. Xoreoqrafiya ixtisası üzrə I sinfə qəbul imtahanında namizədin qabiliyyət və bacarıqları hər bir Komissiya üzvü tərəfindən aşağıdakı 3 meyar üzrə ümumilikdə 100 balla (5.4.3.1- ci bənddəki meyar üzrə maksimum 40 bal, 5.4.3.2-ci bənddəki meyar üzrə maksimum 30 bal və 5.4.3.3-cü bənddəki meyar üzrə maksimum 30 bal) qiymətləndirilir:

Xoreoqrafiya təlimi üçün fizioloji imkanları, anatomik xüsusiyyətləri

0 - 10 bal - qeyri-kafi

11 - 20 bal - kafi

21 - 30 bal - yaxşı

31 - 40 bal - əla

Namizədin ritm duyumu

0 - 10 bal - qeyri-kafi

11 - 20 bal - kafi

21 - 25 bal - yaxşı

26 - 30 bal - əla

Namizədin eşitmə qabiliyyəti və musiqi duyumu

0 - 10 bal - qeyri-kafi

11 - 20 bal - kafi

21 - 25 bal - yaxşı

26 - 30 bal - əla

7.4. Namizədin imtahan nəticəsinin hesablanması:

$$\frac{\text{Balların cəmi}}{\text{Komissiya üzvlərinin sayı}} = \text{Nəticə}$$

- Məsələn: üç meyar üzrə 3 komissiya üzvü tərəfindən verilən ümumi ballar: 80 bal; 73 bal; 70 bal. Nəticənin hesablanması: (80 + 73 + 70) : 3 = 74,3 bal

## 8. İxtisas, məktəb seçimi və yerləşdirmə

8.1. İmtahandan tələb olunan minimum balı (50 bal) toplamış namizəd ixtisas və məktəb seçimi mərhələsində iştirak etmək hüququ əldə edir.

8.2. Minimum bal tələbi yalnız ixtisas və məktəb seçimi mərhələsinə buraxılış məqsədi ilə tətbiq olunur və namizədin hər hansı məktəbə və ya ixtisasa qəbul olunmasına təminat vermir.

8.3. İmtahan nəticələri elan edildikdən sonra minimum bal tələbinə cavab verən namizədlər "MyCulture" vahid şəxsi kabineti vasitəsilə ixtisas və məktəb seçimlərini 10 (on) gün müddətində həyata keçirirlər.

8.4. Məktəb və ixtisas seçimi yalnız şəxsi kabinet üzərindən qəbul üçün müraciət etmiş şəxs tərəfindən aparıla bilər.

8.5. Namizədlər seçim mərhələsində 3 (üç) ixtisas, hər bir ixtisas üzrə isə 2 (iki) məktəb seçimi edə bilərlər.

8.6. Namizədlərin yerləşdirilməsi zamanı ixtisas və məktəb seçimlərinin namizəd tərəfindən müəyyən edilmiş ardıcıllığı əsas götürülür.

8.7. Yerləşdirmə yalnız namizədin seçim etdiyi ixtisaslar üzrə həyata keçirilir.

8.8. Hər bir məktəb və ixtisas üzrə ayrılmış dövlət sifarişli təhsil üzrə plan yerlərinə həmin ixtisas və məktəbi seçmiş namizədlər arasında ən yüksək bal toplamış şəxslər qəbul edilir.

8.9. Bu Qaydalara əsasən sabit və əvvəlcədən müəyyən edilmiş keçid balı tətbiq edilmir. Keçid balı müvafiq ixtisas və məktəb üzrə həmin tədris ili üçün sonuncu yerləşdirilmiş namizədin topladığı bal əsasında formalaşır.

8.10. I sinfə qəbul zamanı eyni ixtisas üzrə eyni ümumi bal toplamış namizədlər olduqda üstünlük aşağıdakı ardıcıllıqla müəyyən edilir:

8.10.1. xanəndəlik və vokal ixtisasları üzrə yerləşdirmə zamanı namizədlərin ümumi balı eyni olduqda, üstünlük ardıcıllıqla musiqi yaddaşı və mahnı oxuma, həmin göstərici eyni olduqda eşitmə qabiliyyəti üzrə daha yüksək nəticə göstərmiş namizədə, bu göstəricilər eyni olduqda isə təvəllüdünə görə yaşı daha çox olan namizədə verilir;

8.10.2. nağara ixtisası üzrə yerləşdirmə zamanı namizədlərin ümumi balı eyni olduqda, üstünlük ardıcıllıqla ritm duyumu, həmin göstərici eyni olduqda eşitmə qabiliyyəti üzrə daha yüksək nəticə göstərmiş namizədə, bu göstəricilər eyni olduqda isə təvəllüdünə görə yaşı daha çox olan namizədə verilir;

8.10.3. digər bütün musiqi ixtisasları üzrə yerləşdirmə zamanı namizədlərin ümumi balı eyni olduqda üstünlük ardıcıllıqla eşitmə qabiliyyəti, həmin göstərici eyni olduqda ritm duyumu üzrə daha yüksək nəticə göstərmiş namizədə, bu göstəricilər eyni olduqda isə təvəllüdünə görə yaşı daha çox olan namizədə verilir;

8.10.4. rəssamlıq ixtisası üzrə yerləşdirmə zamanı namizədlərin ümumi balı eyni olduqda üstünlük ardıcıllıqla işıq-kölgənin düzgün verilməsi, ümumi rəng koloritinin düzgün seçilməsi, həmin göstəricilər eyni olduqda rəsmin düzgün yerləşdirilməsi və ölçü nisbətlərinin (proporsiyaların) düzgün verilməsi üzrə daha yüksək nəticə göstərmiş 9 namizədə, bu göstəricilər eyni olduqda isə təvəllüdünə görə yaşı daha çox olan namizədə verilir;

8.10.5. xoreoqrafiya ixtisası üzrə yerləşdirmə zamanı namizədlərin ümumi balı eyni olduqda, üstünlük ardıcıllıqla fizioloji imkanları vəanatomik xüsusiyyətləri, həmin göstəricilər eyni olduqda ritm duyumu üzrə daha yüksək nəticə göstərmiş namizədə, bu göstəricilər eyni olduqda isə təvəllüdünə görə yaşı daha çox olan namizədə verilir.

8.11. Məktəb və ixtisas seçiminin nəticələri elan olunduqdan sonra namizədin valideyni və ya qanuni nümayəndəsi 20 gün müddətində aşağıdakı sənədlərini sistemə yükləyir və sistem üzərindən təhsil alacağını təsdiqləyir:

8.11.1. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi (əcnəbilər üçün)

8.11.2. sağlamlıq haqqında tibbi arayış;

8.12. Təhsilalanların məktəbə qəbulu “MyCulture” vahid şəxsi kabineti üzərindən təqdim edilmiş sənədlərin müvafiq məktəbin direktoru tərəfindən sistem üzərindən yoxlanılaraq təsdiq edilməsi yolu ilə rəsmiləşdirilir. Təqdim edilmiş sənədlərdə uyğunsuzluq və ya texniki səhvlər aşkar edildikdə, sənədlər direktor tərəfindən sistem vasitəsilə geri qaytarılır və 8.11-ci bənddə nəzərdə tutulmuş müddət bitənədək yenidən təqdim olunur.

8.13. Sənədlər göstərilən müddət ərzində sistemə yerləşdirilmədikdə sənədlər qəbul edilmir, namizəd yerləşdirmədən imtina etmiş hesab olunur və onun müsabiqə üzrə nəticələri etibarsız sayılır.

## 9. Təhsilalanların yerdəyişməsi

9.1.Təhsilalanın yerdəyişməsi ilə bağlı müraciət namizədin valideyni və ya qanuni nümayəndəsi tərəfindən "MyCulture" vahid şəxsi kabineti üzərindən elektron formada təqdim edilir.

9.2.Təhsilalanın yerdəyişməsi üçün əsaslar Nazirlik tərəfindən araşdırılır və nəticəsi barədə "MyCulture" vahid şəxsi kabineti vasitəsilə elektron bildiriş göndərilir.

9.3.Yerdəyişmə yalnız əsaslandırılmış zəruri səbəblər (yaşayış yeri, ailə vəziyyəti və s.) və yerdəyişmə istənilən məktəbdə müvafiq ixtisas üzrə boş yer mövcud olduqda və təhsil müəssisəsinin tədris prosesinin təşkili imkanları nəzərə alınmaqla həyata keçirilir.

9.4.Bu Qaydaların tələblərinə uyğun olmayan və ya əsaslandırılmamış müraciətlərə baxılmır.

## 10. Qaydaların pozulmasına görə məsuliyyət

10.1. Təhsilalanların məktəblərə qəbulu və yerdəyişməsi ilə bağlı olan, lakin bu Qaydalarla tənzimlənməyən məsələlər mövcud qanunvericiliyə uyğun olaraq tənzimlənir.

10.2. Təhsilalanların məktəblərə qəbulu və yerdəyişməsi ilə əlaqədar bu Qaydaların tələblərinə riayət edilməməsi intizam məsuliyyətinə səbəb olur.

10.3. namizədin valideyni və ya qanuni nümayəndəsi qəbul və ya yerdəyişmə ilə bağlı müraciətdə qeyd etdiyi məlumatların, təqdim etdiyi sənədlərin doğruluğuna görə şəxsən məsuliyyət daşıyır. Qəbulun hər hansı mərhələsində namizədin məlumatlarının düzgün olmadığı, qəsdən səhv və ya təhrif edilmiş məlumatların, saxta sənədlərin təqdim edildiyi və ya qəbulla bağlı müəyyən edilmiş tələblərə uyğun olmadığı aşkar edilərsə, nəticələri ləğv edilir.